# NİZAMİ GƏNCƏVİ

***(1141-1209)***

Bəşər mədəniyyəti tarixində özünəməxsus mövqeyi olan, əsərləri dünya şeir xəzinəsinin nadir inciləri sayılan böyük Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığı ictimai-bədii fikrimizin inkişafında yeni, orijinal bir mərhələ təşkil edir.

İdeya-estetik tutumu, əhatə, təsir və nüfuz dairəsinə görə Nizami Gəncəvi yaradıcılığı məkan və zaman tanımır. İctimai-bədii fikri qlobal miqyasda və bütün əsrlərdə düşündürən bəşəri problemlərin heyrətamiz bir ustalıqla sənət şərhi Nizami bədii irsinin həmişəyaşarlığını təmin edən başlıca cəhətdir. Dahi Azərbaycan şairinin poeziyası insan şəxsiyyəti və qürurunun, insan əqli və iradəsinin, onun tükənməz və coşqun istedadının əzəmətini şeirin ecazkar qüdrəti ilə təsdiqləyən bir sənəddir. Nizami dühası bütövlükdə bu mühüm amalı bədii məqsəd kimi götürür. Nizami əsərlərində "mən"in həyatın təsisindəki rolu – zehni, hissi, əqli fəaliyyəti xüsusi vurğuludur. Düşünən və yaradan, sevən, sevilən insan hər şeydən çox maraqlandırır şairi. Nizami Gəncəvi şeirinin əsas çıxış nöqtəsini burada görmək lazımdır.

Nizami Gəncəvi 1141-ci ildə qədim Gəncə şəhərində anadan olmuş, ömür boyu bu şəhərdən kənara çıxmasa da, zəngin mütaliəsi ilə müxtəlif elm sahələrinin sirrinə yaxından bələd olmuş, əsərlərində də bunu əks etdirmişdir. Şairin tarixin qaranlıqlarına çulğanaraq çox qismi itib-batan, zəmanəmizə qədər az bir hissəsi gəlib çatmış lirik şeirləri də, "Xəmsə" ("Beşlik") başlığı altında birləşdirilən irihəcmli epik əsərləri – "Sirlər xəzinəsi" ("Məxzənül-əsrar"), "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" ("Həft peykər") və iki kitabdan ("Şərəfnamə" və "İqbalnamə") ibarət "İskəndərnamə"si də bu daxili məna və məntiqə xidmətdədir.

Şair özü adının "İlyas", təxəllüsünün "Nizami" olduğunu qeyd edir. Biz onun atasının Yusif, babasının Zəki (yaxud Nizami dövrü qaydası ilə deyilsə Zəkiəddin), ulu babasının isə Müəyyəd (Müəyyədəddin) fəxri adı daşıdığını da şairin öz yazısına əsasən öyrənirik. Şair əsərlərində anası və dayısı Xacə Ömər haqqında məlumat verir, ilk müəllimi-ustadı, ailələrinin yaxın dostu, el ağsaqqalı, səxavətdə, fəsahətdə misilsiz olan Xoylu İmadı (İmadəddin) xatırlayır, eləcə də sevimli rəfiqəsi Appaq-Afaqın, ondan olan oğlu Məhəmmədin adını çəkir. Yaşayıb-yaratdığı, sevib-sevildiyi, ad-sanının, şöhrətinin çıxış nöqtəsi olan doğma Gəncəsi barədə də Nizami əsərlərində dəfələrlə bəhs açır. Şair dövrün tələbinə görə fars dilində yazmağa məcbur olsa da, əsərlərində türk ruhunu daim qoruyub saxlaya bilmişdir.

Nizami Gəncəvi hicri-qəməri tarixilə 63 il yarım (miladi tarixlə 61 il yarım) yaşamışdır. Sənətkarın son möhtəşəm əsəri olan "İskəndərnamə"nin II kitabı – "İqbalnamə"də ideal qəhrəman və onun fikir silahdaşları – qədim yunan filosofları Sokrat, Hermes, Valis, Əflatun, Ərəstu və başqalarının vəfatının təsviri verilir.